Ədalət 2019.- 1 fevral.- S.6.

# TARİXİ ROMANIN YENİ NÜMUNƏSİ

**Azərbaycan ədəbiyyatında roman janrının yaranması tarixi XII əsrdə Nizami Gəncəvinin "Xosrov və Şirin" mənzum romanı ilə başlasa da, bu ənənənin kütləviləşməsi XX əsrlə bağlıdır. Tarixi roman janrına Azərbaycan ədəbiyyatında da nisbətən az müraciət edilmiş, onun ən diqqətəlayiq nümunələrini yaradan ilk müəllif isə M.C.Ordubadi olmuşdur. Azərbaycanda milli dirçəliş dövründə, xüsusilə də XX əsrin sonlarında - Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra tarixi mövzulra maraq güclənmişdir.**

Yazımıza roman janrı və xüsusilə tarixi roman janrı haqqında girişlə başlamağımız təsadüfi deyil. Əsəri haqqında söhbət açacağımız müəllif İqbal Babanın növbəti kitabı onun əvvəlki kitablarında fərqli olaraq lirik deyil, epik növə daxil olan tarixi roman janrındadır. Bu günə qədər ancaq şeir və poemalarla oxucuların görüşünə gələn İqbal Baba bu dəfə qələmini daha mürəkkəb bir janrda sınamağı qərara almışdır.

O, o qədər də asan olmayan, məsuliyyətli bir yükün altına girmiş, həm də şair İnqilab İsaqın yazdığı ön sözdən də göründüyü kimi, əsərini nəinki bir, 3 hissədən ibarət yazmağı qarşısına məqsəd qoymuşdur. Romanın I hissəsi şair-publisist Ramiz Təmkinin redaktorluğu ilə "Elm və təhsil" nəşriyyatında çap olunmuşdur.

İqbal Babanın bu ilk nəsr əsəri - "Sönməyən ocaqlar" romanında XIX əsrin sonu, XX əsrin əvvəllərinə aid keşməkeşli bir dövrün hadisələri təsvir olunur.

Romanda hadisələr nüfuzlu el ağsaqqalı səviyyəsinə yüksəlmiş Arğalı adlı tarixi şəxsiyyət ətrafında cərəyan edir. Müəllifin ön sözündən məlum olduğu kimi, bu şəxs görkəmli bir sənətkarın - özünün yaratdığı bina-abidələri, istehkamları, qalaları ilə məşhur olan bir memarın nəslindəndir.

Azərbaycanın, Türkiyənin müxtəlif guşələrində sənət əsərləri ilə iz qoyan bu memar sənəti ilə böyük sərvət sahibi olur, sonra şəraitin tələbi ilə doğma yurdunu tərk edərkən bu sərvətini gizlədir. Memarın dəfinənin xəritədə göstərdiyi yerini onun sonrakı nəsilləri itirib, tapa bilmir. Bu axtarışın estafeti 500 il ərzində nəsildənnəslə ötürülərək, nəhayət, romanın qəhrəmanı Arğalıya gəlib çatır. Oxucu bu ön sözü oxuduqdan sonra xəzinə axtarışı ilə bağlı səhnələr görəcəyini güman etsə də, romanın I hissəsində dəfinə söhbəti hələ gizli qalmaqda davam edir.

Romanın bu hissəsinin məzmununu Arğalı adlı şəxsiyyətin həyatı və onun müasiri Cəlil bəyin Arğalıya düşmən münasibətinin nəticəsi olan hadisələr təşkil edir.

Arğalı və Cəlil bəy xaraktercə tamamilə əks qütblərdə dayanırlar. Arğalı ümumxalq məhəbbəti qazanmış mərd, igid, xeyirxah, səxavətli insandır. Cəlil bəy isə bəd əməllər sahibidir, şəxsi mənafeyini xalqın mənafeyindən üstün tutur, xalqa qarşı zalımdır, özündən başqa heç kəsin yüksəlişini, tərifələnməsini gözü götürmür. Həsəd, paxıllıq qəlbindəki bütün gözəl, ülvi hissləri məhv etmişdir.

Arğalı sadə xalq nümayəndəsidir, lakin öz fərasəti, zəhmətsevərliyi ilə bəylərdən də zəngindir. Arğalı sadə ailədən çıxsa da, maddi vəziyyəti, savadlı olması, həmçinin rus dilini də bilməsi ona yuxarı dairələrdə də nüfuz qazandırıb. Arğalının maddi zənginliyi mənəvi zənginliyi ilə həmahəngdir. O, səxavətlidir, Allahın verdiyi neməti imkansızlarla, kasıblarla bölüşməyi bacarır. Çar məmurlarının yerli ağaların, bəylərin yardımı ilə adamları vergiyə cəlb etdiyi, vergi ödəyə bilməyənləri isə cəzalandırdığı şəraitdə Arğalı bir xilaskar kimi peyda olur. Kasıb, imkansız adamların əvəzinə vergi ödəməklə onları cəzadan xilas edir.

Xalqın xeyri-şəri onun yardımı ilə həyata keçirilir. Toy eləyən də, matəm məclisi quran da ona müraciət edir və Arğalı heç kəsi naümid geri qaytarmır. Tüksüz Mirzənin atasını və başqalarını vergidən azad etdirən, Qara Qurbanın toy və yas mərasimlərini yüksək səviyyədə həyata keçirən Arğalı çobanları ilə münasibətdə daha irəli gedir. O, mal-qarasını, qoyun-quzusunu otaran çobanları öz ailəsinin bir üzvü bilir, onlarla ağa kimi yox, dost, qardaş kimi rəftar edir. Onların hər bir çətinliyini özününkü kimi qarşılayan Arğalı, çobanların yaralanması, xəstəliyi zamanı ən yaxın adam kimi həyəcan keçirir, çobanın (Ələsin) ölümünü isə böyük fəlakət sayır: "Arğalı bu dərddən həqiqətən iki qat olmuşdu. Ona elə gəlirdi ki, ölən onun qulluqçusu, çobanı deyil, əziz balası, istəkli qardaşı, sadiq və sədaqətli dostudur. Ona görə də Arğalı ürəkdən ağlayırdı, göynəyə-göynəyə, yana-yana ağlayırdı".

Cəlil bəy isə Arğalının əksinə olaraq, öz var-dövlətini kimlərəsə hədiyyə etməyi, kimlərisə dardan qurtarmaq vasitəsi etməyi heç düşünmür. Var-dövlət onun üçün yalnız öz çirkin, xəbis niyyətlərini həyata keçirmək vasitəsidir.

Arğalıya qarşı elan edilməmiş müharibə aparan Cəlil bəyin düşmənçiliyinin səbəbi nifrətəlayiqdir. İnsanlara yaxşılıq edən, xalqı çar məmurlarının zülmündən xilas edən Arğalı onda qara bir həsəd, paxıllıq hissi doğurur. Arğalının yaxşılığı qarşısında özünün amansızlığının daha çox nəzərə çarpıb, nifrət doğurmasını; Arğalının öz xeyirxahlığı ilə onun nüfuzuna xələl gətirəcəyini düşünən Cəlil bəy onu aradan qaldırmağı planlaşdırır və planına iki gənci alət edir. Bu gənclərin biri Arğalının vaxtilə vergidən azad etdiyi Allahqulunun oğlu Tüksüz Mirzədir. Sonralar Cəlil bəy bir gənci özünün öldürtdüyü Allahqulunun qatili kimi qələmə verib Sibirə sürgün elətdirmişdir. Bu hadisələr baş verən zaman uşaq olan Tüksüz Mirzəni Cəlil bəy indi öz mənfur əməlinə cəlb etməyə çalışır ki, sonra onu da Arğalının qətlində günahlandırıb sürgün elətdirsin. Cəlil bəy elə bilir ki, Allahqulunun oğlu atasının qatilini xatırlamır.

Tüksüz Mirzə isə heç nəyi unutmamışdır və bu yaddaş mühakiməsinə görə Cəlil bəy onun düşməni, Arğalı isə dostu olur. Cəlil bəyin niyyətini Arğalıya çatdıran Tüksüz Mirzə axıradək ona sadiq qalır, Cəlil bəyin yanında ancaq Arğalının xeyrinə çalışır.

Arğalı ilə Cəlil bəyin öz ömür-gün yoldaşlarına münasibətləri də fərqlidir. Arğalı Balaxanımı çox sevir, onu qiymətləndirir, lakin həyat yoldaşını çətin, mürəkkəb situasiyalardan, qayğılardan uzaq tutmağa çalışır, özünü gözləyən təhlükədən onu xəbərdar edib həyəcanlandırmaq istəmir və beləliklə də, arvadının da açıq-aşkar ona məsləhət verməsinə şərait yaratmır. Cəlil bəy isə Mələk xanımın dedikləri ilə oturub-durur, özü çox səbirsiz, dar düşüncəli olub,



yalnız arvadının təkidləri sayəsində bir çox hallarda tələsik səhv qərarlar verməkdən əl çəkir.

Balaxanım və Mələk xanım - bu iki düşmənin iki tədbirli qadınının biri xeyrə (Balaxanım), o biri isə təəssüf ki, şərə (Mələk xanım) xidmət edir. Mələk xanım adının əksinə, mələklik yox, şeytanlıq edir. Ərinin düşmənçilik niyyətlərinə rəvac verir, daha əlverişli planlar işləyib hazırlayır ki, əri xəbis niyyətlərini daha asanlıqla həyata keçirə bilsin. Mələk xanım öz gözəlliyindən də sui-istifadə edərək ərinə istədiyini qəbul etdirir.

Balaxanım obrazı əsərdə Arğalıya nisbətən ikinci dərəcəli kimi görünsə də, müəllif bu obrazı daha dərindən, psixoloji incəliklərlə təsvir etmişdir. Arğalı zəmanəsinin adlı-sanlı kişilərindən biri olduğu kimi, ömür-gün yoldaşı da zəmanəsinin qeyri-adi qadınlarındandır. Belə deyirlər ki, hər bir güclü kişinin, görkəmli şəxsiyyətin arxasında güclü bir qadın dayanır. Bu ifadə Arğalı ilə Balaxanım haqqında deyilə bilər. Müəllif, bəlkə, buna görə də əsərin əsas qəhrəmanı Arğalıdan danışmamış əsəri onun qadınının qayğıları, narahatlıqları ilə başlayır.

Öz ərini dərin məhəbbətlə sevən Balaxanımı təsvir edərkən müəllif qələmə daha ilhamla sarılır: "Arğalı qapını açıb içəri girəndə evdə yanan çırağın zəif işığı onun iri, ala gözlərinin didəsində əks olundu. Bunu Balaxanım da hiss etdi. Ona elə gəldi ki, Arğalının gözlərində əks olunan bu işıq şüası qəlbinin lap dərinliyini işıqlandırdı. Həmin şüalar özü ilə qəlbinə bir istilik, bir rahatlıq, hər cür xofu, qorxunu dağıtmağa bir güc gətirdi. Əslində, Balaxanım bu hissləri əri ilə hər üz-üzə gələndə, göz-gözə baxanda, hər hansı bir məsələni müzakirə edəndə keçirirdi. Həmin hissləri hər an Arğalı da keçirirdi Bir-birinə bağlılıq, əminlik, inam verirdi bu hiss onlara".

Bu qadın nəyə görə güclüdür? Axı o ki, ərinə və başqalarına hökmlə müraciət etmir, öz dediklərini yeritmək üçün təkid etmir. Onun gücü məhəbbətindədir. O daim Arğalıya - ömür-gün yoldaşına üz verə biləcək bəlalara sinəsini sipər etməyə hazırdır. Ərinə sezdirmədən onu təhlükələrdən qorumaq, onun düşmənlərinin hər bir addımından xəbər tutmaq üçün tədbir tökür, təhlükə hiss etdikdə isə çapkəninin gizli cibində saxladığı silahlarla döyüşə hazır olur.

Balaxanımın öz ərinə o dərəcədə şəfqəti, hətta o dərəcədə fədakardır ki, hamını təəccübləndirən qeyri-adi bir qərar qəbul edir - özü könüllü olaraq onu ikinci bir qadınla - gözəl Meyirsə ilə evləndirir. Arğalı baxmayaraq ki, Meyirsəni tanıyır, hətta Balaxanımdan əvvəl onu görüb vurulmuşdu - bu izdivaca etiraz edir, Balaxanımın niyyətinə mane olmaq üçün yetərincə müqavimət göstərir. Balaxanım isə öz məqsədindən dönmür və haqlı olduğunu belə əsaslandırmaya çalışır ki, özünün 2 oğlu olsa da heç biri Arğalı kimi vuran-tutan deyil, hətta İstanbulda dini təhsil almış oğlu Bayramalı: "Mən bir canlıya silah qaldıra bilmərəm", - deyir. Balaxanım: "Mənim atam molla olub, oğlanlarım da mən tərəfə çəkib. Meyirsənin oğlanları isə dayıları Əyriqılınc Məmiş kimi igid olacaq. Arğalının özü, varı-dövləti təhlükədən uzaq olacaq", - deyir.

Meyirsəni onun dəliqanlı qardaşı Məmişdən almaq üçün çətinliklərlə üzləşən Balaxanım, nəhayət, istəyinə nail olur. Müəllif onun ərini sevən bir qadın kimi keçirdiyi iztirabları da ustalıqla qələmə alır: " Balaxanımın dünyada ən öyük arzusu, Meyirsəni əri Arğalıya almaq arzusu çin olurdu. Bax bu ana qədər Meyirsəni Arğalıya almaq üçün ölümə də hazır olan Balaxanım, deyəsən, mənəviyyatca yavaş-yavaş ölürdü Balaxanım qəflətən yuxudan ayıldı elə bil. Bu, gördüyü işin nə demək olduğunun fərqinə varmaq idi. Balaxanıma elə gəldi ki, durduğu bu çökəkdə hava yoxdu, nəfəs ala bilmir, boğulur Dizləri taqətdən düşdü, qolları boşaldı. Güclə özünü toplayıb, üzünü qızıl ürgənin yalmanı aşan tərəfdən boynuna söykədi. İndi o, ölüm-dirim döyüşündə son nəfəsdə düşməni öldürüb, özü ayaq üstə qalan, lakin bircə qədəm yeriməyə taqəti olmayan qəhrəmana oxşayırdı".

Balaxanım gördüyü bu işlə ərinin ona olan böyük məhəbbətini itirə biləcəyini düşünsə də, öz fikrindən dönmür: "Özünü güclə saxlayırdı. Qorxurdu ki, içini didən qəhər göz yaşı olub Meyirsənin yanındaca gözündən gilə-gilə töküləcək. Arğalını tez evə çağırdı:

- Səni Meyirsəyə, Meyirsəni də sənə verib hər ikinizi Allaha tapşırıram, - dedi, zorla gülümsündü. Sonra da cəld addımlarla qapıdan çıxıb qızıl ürgəni mindi Kənddən çıxan kimi hönkürtü ilə ağlamağa başladı. Düz yaylağa qədər ağladı".

Romanın məziyyətlərindən biri də əsərdə dramatik gərgin lövhələrin ustalıqla işlənməsidir. Müəllif təxminən 100 ildən də çox əvvəl baş vermiş hadisələrin ardıcıllığını elə təsvir edir ki, sanki bu hadisələr yaxın günlərdə, müəllifin gözü önündə baş vermişdir.

İqbal Baba Arğalının düşmənlərinin onun yaxın adamlarını - çobanları ölümə sürükləyən hiyləgər planlarının detallarını, vuruşma səhnələrini incəliklə işləyib. Arğalının düşmənlərinin öz qurduqları tələyə düşməsi, məğlubiyyətə uğraması oxucuların həyəcanla gözlədiyi müsbət sonluq olur.

Əsərin əsas müsbət xüsusiyyəti bundan ibarətdir ki, müəllif qəhrəmanını qələbəyə yüngül yolla aparmır; Arğalı və onun adamlarının qələbəsi real gerçəklikdən doğan, əsaslandırılmış qələbədir. Bu qələbəni şərtləndirən səbəblərdən biri və ən birincisi, onun özünün igid, ağıllı, tədbirli adam olması ilə bağlıdırsa, ikincisi, onun ətrafında olan insanların: ömür-gün yoldaşı Balaxanımın; ailə üzvlərindən ayırmadığı, bir tikəsini belə ayrı yemədiyi çobanların və bir də öz təmənnasız səxavəti, qonaqpərvərliyi, mərdliyi ilə qazandığı dostu Ələkbər bəyin ona kömək etməsi ilə bağlıdır. Ələkbər bəy bizə tarixdən məlum olan gəncəli Rəfibəylilərdəndir.

Ələkbər bəy Gəncə (o zaman Yelizavetpol) quberniyasındakı vəzifəsi ilə bağlı Gədəbəyə gələrkən Arğalı ilə tanış olur, sonra onların bu tanışlığı dostluğa çevrilir. Müəllif onu oxuculara belə təqdim edir: "Ələkbər bəy çox mərd, səxavətli, dostluğa sadiq bir insan idi. Heç vaxt dostunu darda qoymazdı. Etdiyi yaxşılığı sona qədər edərdi. Onun bir sözü var idi: "Kişi ya bir işi görməz, ya da axıra qədər görər. Yarımçıq iş görənin özü də yarımçıq olur" - deyərdi.

Arğalının malına qəsd edib, sürü ilə heyvanını oğurlamaqla, onu davaya cəlb etməklə həyatına son qoymaq istəyən Cəlil bəy bu niyyətinə çatmadıqda daha təhlükəli yola əl atır: Arğalının çobanı Bəndalını oğurlatdırıb öldürmək, cinayəti Arğalının üstünə atmaq istəyir. Bu məqsədinə də nail ola bilmir, çünki bu dəfə Arğalının arxasında çobanlarla yanaşı, dostu Ələkbər bəy də durur. Onlar birlikdə bu qəsdin qarşısını alırlar. Bəndalı ilə bağlı bu əhvalat mürəkkəb vəziyyətlərin böyük ustalıqla həll edilməsinə görə məşhur detektiv romanlardan geri qalmır.

Romanın bu hissəsində hadisələr əsasən Gədəbəy rayonunda kəndlərdə və yaylaqda, Şəmkirdə, Gəncə və Gəncəətraflı kəndlərdə baş verir.

"Vətən həsrətinə bükülmüş" (İnqilab İsaqın ifadəsi) lirik şeirlər müəllifinin - İqbal babanın nəsrə gəlişi müvəffəqiyyətlidir. Roman özünəməxsus maraqlı sujet xəttinə malikdir, rəngarəng insan obrazları ilə zəngindir. Əsərin əsas iştirakçıları ilə yanaşı, epizodik obrazlar: ölüm ayağında belə ağasının haqqında düşünən Ələs, xalq təbabətinin gücü ilə insanları ağır xəstəliklərdən xilas edən Bəsti, xəbis insanları gülünc vəziyyətə salan hazırcavab Əlirza, oğlunun başına gələn fəlakətlərlə ölüb-dirilən "keçi" Səhnə, falçı rolunu ustalıqla oynayan Pəri və başqaları yaddaqalan cizgilərlə işlənmişdir. Roman həm sadə, həm də obrazlı deyim tərzi ilə; təbiətin gözəlliklərindən, xalqımızın etnoqrafiyasından, məişətindən bəhs edən nümunələrlə, xüsusən köçəri həyat tərzi, maldarlıq, kulinariya, xalq təbabəti ilə bağlı məlumatlardan müəllifin yerli-yerində istifadə etməsi ilə; yeni sözlərin ədəbi dilə gətirilməsi ilə (amma yaxşı olardı ki, bu sözlərin, məsələn, dəmbəzimək, təyə, purşalmaq, muxru, çiyə və s. izahı da veriləydi) seçilir.

**Bir sözlə, "Sönməyən ocaqlar" əsəri əsas qəhrəman Arğalının şəxsi həyatı zəminində baş verən macəralı hadisələri dövrün, zamanın ictimai hadisələri ilə qovuşuq formada təsvir edən oxunaqlı bir romandır. Yəqin ki, müəllif əsərin növbəti hissələrində bizi daha maraqlı hadisələrdə üzləşdirəcək, əsas qəhrəmanların xarakterik cizgilərini daha da dolğunlaşdıraraq mükəmməl obrazlar qalereyası yaradacaqdır. Ümidvarıq ki, İqbal Babanın bu romanı növbəti hissələri ilə birgə Azərbaycan ədəbiyyatında tarixi roman janrı xəzinəsini yeni nümunə ilə zənginləşdirəcək.**

**Firəngiz İDRİSQIZI**